# Çin şirkətinin ölkəmizlə təmiz enerji əməkdaşlığı



**Çinin "Energy China" şirkəti törəmə qurumları vasitəsilə respublikamızın bərpaolunan enerji sektorunda iştirakını genişləndirir. Şirkətin Azərbaycan üzrə meneceri Şansyan Vunun mediaya məlumatında bildirilir ki, keçən ilin iyun ayında Azərbaycan Energetika Nazirliyi ilə CGGCOIC şirkəti arasında imzalanan Anlaşma Memorandumuna əsasən, respublikamızda günəş və külək enerjisi, "yaşıl" hidrogen sahəsində irimiqyaslı layihələrin həyata keçiriləcəyi nəzərdə tutulub.**

Menecer daha sonra qeyd edib ki, cari il iyulun 3-də Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatı sammiti çərçivəsində Çin Xalq Respublikasının sədri Si Cinpin Prezident İlham Əliyevlə görüşüb. Bu görüşdə "yaşıl" enerji və regional əlaqələr sahəsində səylərin artırılmasının vacibliyi vurğulanıb ki, bu da ölkələrimiz arasında strateji tərəfdaşlığın yaradılması haqqında birgə bəyanatda da qeyd olunub.

"Energy China" şirkəti hər iki tərəf üçün uzunmüddətli strateji faydalar gətirəcək "Yaşıl Enerji Zonası" və "Yaşıl dəhliz" təşəbbüsləri çərçivəsində əməkdaşlıq edir. Şirkət, həmçinin bərpaolunan enerji mənbələri sahəsində "SOCAR Green" və "Nobel Energy" kimi yerli şirkətlərlə əməkdaşlıq və tərəfdaşlığı gücləndirir. Bildirilib ki, "Energy China"nın dəstəklədiyi sənaye zəncirində enerji, nəqliyyat, rəqəmsal, su, ekoloji, sənaye və mədəni şəbəkələr arasında dərin inteqrasiya da perspektivli istiqamətlərdəndir.

Çin şirkətinin Azərbaycan üzrə menecerinin sözlərinə görə, COP29 konfransı bərpaolunan enerji, dayanıqlı infrastruktur və iqlim dəyişikliyi ilə mübarizə sahəsində fəaliyyət göstərən şirkətlər, o cümlədən "Energy China" üçün böyük əhəmiyyət kəsb edir: "Biz təmiz enerji sistemlərinə qlobal keçid, karbon emissiyalarının azaldılması strategiyası və iqlim dəyişikliyinə uyğunlaşmanın nəticələrinin yumşaldılması üçün maliyyə öhdəliklərinin artırılması çərçivəsində daha çox müsbət addımlar atılmasını gözləyirik".

Şirkət nümayəndəsi hesab edir ki, bu, Azərbaycanın "yaşıl" enerji sahəsində böyük ambisiyalarını və fəaliyyətini dünyaya nümayiş etdirmək üçün əla fürsətdir. COP29 çərçivəsində hədəflər, siyasət və maliyyələşdirmə ilə bağlı məsələlərin əsas müzakirə mövzusu olacağı danışıqlar qarşıdakı dövrdə bərpaolunan enerjinin inkişafını müəyyənləşdirəcək.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Xalq qəzeti.- 2024.- 20 sentyabr, (№ 205). - S.9.